# AZƏRBAYCAN RESPUBLİKASINDA BITKI SAĞLAMLIĞI SAHƏSİNDƏ BAŞ VERƏ BİLƏCƏK BÖHRAN VƏZİYYƏTLƏRƏ HAZIRLIQ VƏ BELƏ HALLARDA FƏALİYYƏT PLANI

Son zamanlarda iqlim dəyişiklikləri və beynəlxalq ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artması zərərli orqanizmlərin yeni ərazilərə keçməsi və yayılması riskini də artırmışdır. Bu səbəbdən, respublika ərazisində təhlükəli bitki xəstəlik və zərərvericilərinin mövcudluğunun vaxtında aşkarlanması, zərərli orqanizmlərin təsirindən baş verə biləcək məhsul itkisinin, karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin yeni ərazilərə keçməsinin və kütləvi yayılmasının qarşısının alınması və yarana biləcək böhran vəziyyətinin vaxtında aradan qaldırılmasının təmin olunması məqsədilə böhran vəziyyətlərinə hazırlıq və planlaşdırma fəaliyyətlərinin, eyni zamanda böhran vəziyyətlərini idarəetmə tədbirlərinin operativ həyata keçirilməsi zərurəti yaranmışdır.

Zərərli orqanizmlərin yeni ərazilərə keçməsindən və ya kütləvi çoxalmasından əvvəl yüksək introduksiya potensialına malik olan bəzi zərərli orqanizmlər və zərərli orqanizm qrupları üçün müvafiq planların hazırlanması olduqca əhəmiyyətlidir. Belə planların işlənib hazırlanması məhvetmə proqramının tez və səmərəli şəkildə həyata keçirilməsini təmin etmək üçün əsaslandırılmış qərarların qəbulu, habelə qiymətləndirmə və tədqiqat üçün əlavə vaxtın əldə olunması baxımından çox faydalıdır.

Eyni zamanda bu planlar əlaqəli qurumlar arasında əməkdaşlıq proqramlarının mövcud olması səbəbindən xüsusilə vacibdir, çünki əməkdaşlıq edən tərəflərə öz fəaliyyətlərini aydınlaşdırmağa və məhvetmə proqramını təsdiq etməzdən əvvəl razılığa gəlməyə imkan verir. Həmçinin əvvəlki zərərvericilərin uğurlu məhv edilməsi proqramlarından əldə edilmiş biliklər fövqəladə hallar planının işlənib hazırlanmasında və ya müəyyən məhvetmə proqramının həyata keçirilib-keçirilməməsinə qərar verilməsində xüsusilə faydalı ola bilər.

Bitki sağlamlığı sahəsində böhran vəziyyətlərin idarə edilməsi planı böyük iqtisadi və/və ya ətraf mühitə təsir göstərə biləcəcək zərərli orqanizmlərin yayılmasına tez və effektiv cavab verməyi hədəfləyir. Bu planın məqsədi zərərli orqanimlərin yayılmasının qarşısını almaq və ya yavaşlatmaq və onun vurduğu zərəri azaltmaq üçün zərərli orqanizmin erkən aşkarlanması yolu ilə müvafiq mübarizə tədbirlərinin görülməsinə milli səviyyədə aidiyyatı qurumların koordinasiyalı fəaliyyətinin təmin edilməsidir. Plan bitki sağlamlığı sahəsində fəaliyyətləri həyata keçirən qurum və təşkilatların rol və məsuliyyətlərinin aydın şəkildə müəyyən edilməsini təmin edir (Əlavə 1).

Planın hazırlanması üçün Avropa və Aralıq Dənizi Bitki Mühafizəsi Təşkilatının (EPPO) PM 9/10 (1) (Fövqəladə hallar planları üçün ümumi elementlər) standartı və Bitki Mühafizəsi haqqında Beynəlxalq Konvensiyanın (İPPC) “Fövqəladə vəziyyətə hazırlıq: Karantin zərərvericilərinin yayılması üçün fövqəladə hallar planlarının hazırlanması üçün rəhbərlik” sənədindən istifadə olunmuşdur.

Əlavə 1.




Əlavə 2. *Layihə*

**Azərbaycan Respublikasında bitki sağlamlığı sahəsində baş verə biləcək böhran vəziyyətlərinin qarşısının alınmasına dair**
**Tədbirlər Planı**

| № | Tədbirin adı | İcra müddəti | Əlaqələndirici və ya əsas icraçı | Digər icraçılar |
|---|---|---|---|---|
| **A. Böhran vəziyyətlərinə hazırlıq və planlaşdırma** | | | | |
| 1 | Böhran vəziyyətlərinin idarə edilməsi üzrə aidiyyəti qurumların nümayəndələrindən ibarət Böhran İdarəetmə Mərkəzinin yaradılması | 2025 | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Elm və Təhsil Nazirliyi |
| 2 | Böhran vəziyyətlərinin idarə edilməsi üzrə Mobil Əməliyyat Dəstələrinin | 2025 | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Gömrük Komitəsi |

| | | | | |
|---|---|---|---|---|
| | yaradılması | | | |
| 3 | Karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin erkən aşkar edilməsi məqsədilə Monitorinq Planının hazırlanması və icrası | Hər il | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 4 | Böhran vəziyyətlərinə səbəb olan karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlər üçün Təxirəsalınmaz Tədbirlər Planının hazırlanması | 2025-2026 | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Elm və Təhsil Nazirliyi, Dövlət Gömrük Komitəsi |
| 5 | Böhran vəziyyətlərinin Kommunikasiya Planının hazırlanması | 2025-2026 | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| 6 | Beynəlxalq ekspertlərin cəlb edilməsi ilə böhran vəziyyətlərinin idarə edilməsində iştirak edəcək mütəxəssislərin təkmilləşdirilməsi | Böhran vəziyyətləri baş verməzdən əvvəl | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində Qida Təhlükəsizliyi İnstitutu |
| 7 | Mobil əməliyyat dəstələrinin üzvlərinin simulyasiya xarakterli təlimlərə cəlb edilməsi | Böhran vəziyyətləri baş verməzdən əvvəl / Böhran vəziyyətlləri baş verdikdə | Kənd Təsərrüfatı Nazirliyi | Qida Təhlükəsizliyi Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Gömrük Komitəsi |
| **B. Böhran vəziyyətlərinin idarəetmə tədbirləri** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| 8 | Zərərli orqanizm ilə sirayətlənmiş ərazilərin sərhədlərinin müəyyən edilməsi məqsədilə delimitasiya müşahidələrinin aparılması | Mütəmadi – hər il | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 9 | Zərərli orqanizmə qarşı mübarizə məqsədilə zərurət olduqda feromonlu tələlərin, pestisidlərin, müvafiq texniki vasitələrin və avadanlıqların aidiyyəti orqanlarla razılaşdırılmaqla alınması | Böhran vəziyyətləri baş verməzdən əvvəl / Böhran vəziyyətləri baş verdikdə | Kənd Təsərrüfatı Nazirliyi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi |
| 10 | Böhran vəziyyətlərinə səbəb olan zərərli orqanizm ilə bağlı elmi-tədqiqatların və risk qiymətləndirmələrinin aparılması | Böhran vəziyyətləri baş verməzdən əvvəl / Böhran vəziyyətləri baş verdikdə | Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində Qida Təhlükəsizliyi İnstitutu | ,<br>Kənd Təsərrüfatı Nazirliyi, Elm və Təhsil Nazirliyi |
| 11 | Böhran vəziyyətlərinə səbəb olan zərərli orqanizmin yayılma yollarına, o cümlədən sahib bitkilərinin idxalı və ixracı prosesinə nəzarətin gücləndirilməsi | Böhran vəziyyətləri baş verdikdə | Qida Təhlükəsizliyi Agentliyi | Dövlət Gömrük Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi |
| 12 | Zərərli orqanizmin yayılmasının qarşısının alınması, məhv edilməsi üçün dövlət orqanlarının, hüquqi və fiziki şəxslərin fəaliyyətinin əlaqələndirilməsi | Böhran vəziyyətləri baş verdikdə | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Elm və Təhsil Nazirliyi<br>yerli icra hakimiyyəti orqanları |

| | | | | |
|---|---|---|---|---|
| 13 | Zərərli orqanizmə qarşı mübarizə, eləcə də monitorinq və əlaqələndirmə tədbir-lərinin həyata keçirilməsi məqsədilə elektron hesabat platformasının, həmçinin “Qaynar xəttin” yaradılması | Böhran vəziyyətləri baş verdikdə | Kənd Təsərrüfatı Nazirliyi | Qida Təhlükəsizliyi Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| 14 | Böhran vəziyyətlərinə səbəb olan zərərli orqanizmlə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Böhran vəziyyətləri baş verdikdə / mütəmadi | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Elm və Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 15 | Zərərli orqanizmə qarşı ənənəvi və ya alternativ mübarizə tədbirlərinin həyata keçirilməsi | Böhran vəziyyətləri baş verdikdə | Kənd Təsərrüfatı Nazirliyi | Qida Təhlükəsizliyi Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Gömrük Komitəsi |
| 16 | Həyata keçirilən mübarizə tədbirlərinin səmərəliliyinin qiymətləndirilməsi | Böhran vəziyyətləri baş verdikdə | Kənd Təsərrüfatı Nazirliyi | Qida Təhlükəsizliyi Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 17 | Həyata keçirilən tədbirlər barədə dövri hesabatların və təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Böhran vəziyyətləri baş verdikdə | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Elm və Təhsil Nazirliyi, Dövlət Gömrük Komitəsi, yerli icra hakimiyyəti orqanları |